*ELÇİN-65*

# Ədəbi fədakarlıq

**Sabir RÜSTƏMXANLI**



Azərbaycanın görkəmli söz ustalarından biri, xalq yazıçısı, tanınmış ictimai-siyasi xadim, dramaturq və ədəbiyyatşünas alim Elçinin 65 yaşı tamam oldu. Eyni ədəbi nəsildən olan, acılı-şirinli illəri yanaşı addımlayıb keçmiş insanlar bir-birlərinin necə, nə vaxt yaşa dolduqlarını hiss eləmirlər, saç-saqqalları ağarsa da öz gözlərində ilk tanışlıqlarının, gənclik illərinin unudulmaz ovqat və havasında qalırlar.

Elçini ilk dəfə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, redaktoru olduğu "Filoloq" qəzetinin növbəti sayını hazırlayanda görmüşdüm. Tələbəlik həyatına yenicə başlamışdım, o isə universitetlə vidalaşmaq ərəfəsindəydi.

Zarafat deyil, ucqar Yardımlının ucqar bir kəndindən gəlib, o kəndin qərib tənhalığında əsərlərini heyranlıqla oxuduğum İlyas Əfəndiyevin oğluyla bir yerdə qəzet buraxırdıq. Onda İlyas Əfəndiyev mənə Elçindən daha doğmaydı. Elçinin xətrinə dəyməsin, sonralar İlyas müəllimlə dostlaşanda da, indi – onunla ünsiyyətim ancaq əsərlərinin ümidinə qalanda da – bu duyğudan tamam qopa bilməmişəm. Yəqin bunun bir səbəbi də İlyas müəllimin mənə verdiyi suallardı; bu sualları heç vaxt nə Elçindən, nə də ataları kənddən gəlmiş digər yazıçı uşaqlarından eşitmişəm. Yəqin uşaqlarımla mənim aramda da belə bir fərq mövcuddur. İlyas Əfəndiyev mənim dədə-babamın və ya özünün kəndi ilə oğul-uşaqlarının şəhəri arasında bir körpü idi. Ancaq onda mən hələ Elçinin kəndə, dağlara məndən az bağlı olmadığını, Şuşanın, Qarabağın, Azərbaycan əyalətlərinin təbiətini məndən az sevmədiyini bilmirdim. İçində bir mənəmlik vardı. Yəni şəhər Elçinindirsə, kənd də mənimdir. Ancaq sonralar az qala hər hekayəsi və romanında şahidi oldum ki, özümünkü saydığım kənd və təbiət həm də Elçinindir. Bəlkə daha çox onundur. Çünki həmin təbiətin mənim vərdiş etdiyim və görmədiyim rənglərini görür, səslərini eşidir və təsvir edir.

Elçin qürurlu, zahirən özündən razı görünsə də, əslində səmimi, istiqanlı bir gənc idi.

İllər keçdi. Elçinlə yollarımız bir də Nizami adına Ədəbiyyat İnstitutunun dəhlizində kəsişdi və elə bilirəm, dostluğumuz da o çağlardan başladı.

Yazıçı Elçini "Açıq pəncərə" adlı ikinci kitabından sevmişdim, indi isə evimdə 10 cildlik sanballı, "Seçilmiş əsərləri" var. O balaca kitabdan bu çoxcildliyə qədər yaradıcılığın məşəqqəti və xoşbəxtliyi ilə dolu uzun bir yol, şərəfli bir yaradıcılıq ömrü var.

Oncildlik üç il öncə çap olunub. Bu illər ərzində bir neçə dəfə vaxt tapıb ədəbiyyatımızın bu mühüm hadisəsi və faktı barədə, yəni böyük yaradıcılıq hesabatı, "Min gecədən biri" adlı ilk hekayələr kitabından başlanan böyük bir söz və fikir yolu haqqında rəyimi yazmaq istəmişəm, ancaq gündəlik xırda işlərin burulğanında boğula-boğula imkan tapa bilməmişəm.

Bəlkə əlimi saxlayan başqa bir səbəb də olub. Həmin səbəb məsuliyyət hissidir. Yəni bir ömrün belə sanballı yaradıcılıq hesabatı barədə gərək sanballı da rəy yazılsın, vaxtilə oxuduğun əsərləri bir də gözdən keçirəsən, köhnədən yadında qalanlarla, soluxmuş təəssüratlarla yazmaq yaramaz.

Ancaq indi yubileydir və hörmətli qələm qardaşım haqqında bir neçə kəlmə deyib onu təbrik etməyi özümə borc bilirəm. Bu doğurdan bir borc duyğusudur. Əslində, hər bir istedadlı yazıçının yaradıcılığı yüz illərə hesablanmış, yəni mədəniyyətimizin əbədi, işlək yoluna, tarixinə qoşulan bir sərvətdir; yarandığı gündən millətin canlı həyatının, oxu, düşüncə, ibrət, tərbiyə sisteminin bir parçasına çevrilən möcüzədir. Bu kitablar çox nəslin ürəyindən, ruhundan, taleyindən keçib gedəcək, Elçinin ünvanına çox xəyali minnətdarlıqlar, heyrət və sevgi dolu məktublar göndəriləcək. Bu minnətdarlığın bir qismi bu gün imkan varkən ünvanına çatmalıdır. Və bizlərin – eyni dövrdə yaşayan, eyni çarəsizliklər içində qovrulan, millətimizin dərdlərinə eyni vurnuxmalarla əlac axtaran dostların bir-birlərinin sözünə, rəyinə bəlkə daha çox ehtiyacları var. Çünki bizi bizdən yaxşı duyan olmayacaq.

"Heyrət dolu məktublar" ifadəsini təsadüfi demirəm. Mən canlı, parlaq, yeni sözə, Azərbaycan türkcəsinin yeni cilası və yeni üslubda biçimlənməsinə həmişə heyrətlənirəm. Mirzə Cəlilin torpaq sadəliyindən tutmuş, Hadinin, Hüseyn Cavidin mürəkkəb səmavi romantikasınadək, Aşıq Ələsgər duruluğundan tutmuş Mirzə Ələkbər Sabir qasırğasınadək hər böyük ədəbi sima ilə dilin ifadə imkanlarının yeni bir qatı açılmışdır. Üslub – istedadın ilkin əlamətidir – demişlər. Elçin doğrudan da, öz yolu, üslubu, ifadə tərzi, özünəməxsus poetika dünyası olan yazıçıdır. Yəqin ki, bu onun yaradıcılığının ən mühüm keyfiyyətlərindən biridir. Sadə kənd danışığını, primitivizm səviyyəsində bədii üsluba çevirən Cəlil Məmmədquluzadədən tutmuş İsa Hüseynovun (Muğannanın) fəlsəfi-intellektual dili və etimolojiləşdirmələrinədək, nəsrimizin çeşidli üslub çalarları içində Elçinin heç kimi təkrar etməyən və heç kimə bənzəməyən bir yazı tərzi və ifadə sistemi var. Yəqin ki, üslubiyyatçı alimlər, Elçinin araşdırıcıları bu barədə yazıblar və onun üslubunun dəqiq adını və dəyərini müəyyənləşdiriblər. Bu bir nəzəriyyə işidir. Mən ad barədə düşünmürəm, ancaq bu üslubu duyub dəyərləndirirəm, hətta publisistikasının ədəbi-tənqidi yazılarının da bu üslubdan, bu ifadə tərzindən kənar olmadığını görürəm.

Qırx il öncə yazılmış və oncildliyin ilk yazısı olan "Sarı pencək" hekayəsinin ilk abzası isə qırx il sonra bu cildlərin ön sözünün tam eyni bir tərzdə yazıldığını görəndə bəlli olur ki, Elçinin yazmağa başlamazdan öncə, yəni ciddi ədəbi fəaliyyətdən qabaq mükəmməl bir məktəb keçib. "Sarı pencək" hekayəsindəki ilk baxışda mətndən kənarda görünən parçalar publisistikaya bənzəyir, ancaq sonra bəlli olur ki, bu təhkiyyə tərzi qəsdən seçilib; "dəlil-sübutlu", heç nəyi gözdən qaçırmadan, anları donduraraq, detalları birər-birər vurğulayaraq, tələsmədən hadisənin mahiyyətinə varmaq, hər şey haqqında şahidi olmuş kimi danışmaq, ponoram düşüncə yazıçının əsas niyyəti kimi üzə çıxır. Bu xətt hekayədən-hekayəyə inkişaf etdi. "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça" povestlərində yetkin bir üsluba çevrildi.

Elçin də Mirzə Cəlil kimi qəsdən "rəsmi" ifadə tərzindən qaçır, şəhərətrafı kəndlərin, Abşeronun özünə bənzər ifadə yolunu tapır, bu mühitin folklorunu açır, ancaq onun sadəliyi Mirzə Cəlildən fərqlidir, bu şəhər sadəliyinin yüksək fərqi səviyyəyə qaldırılmasıdır.

Elçinin əsərlərini fərqləndirən əsas əlamətlərdən biri də, məncə, özünəxas bir düşüncə manerası, mən deyərdim yaradıcılıq ədasıdır. Əda sözünü burada tam müsbət anlamda, yazıçının qələm azadlığı və özünüifadə sahəsində sərbəstliyi, artistizm və özünə güvənməsi kimi işlədirəm.

Elçinin 10 cildliyinin oxucunu heyrətləndirən başqa bir cəhəti rəngarənglik və zənginlikdir. "Seçilmiş əsərlər" müəllifin qırx il yorulmadan qələm çaldığını, yazmaqla bərabər araşdırdığını, dünya ədəbiyyatının, dostlarının əsərlərini oxumaqdan, gəzməkdən, insanlarla ünsiyyətdə olmaqdan, görüb-götürməkdən yorulmadığını göstərir.

Az qala mifə, əfsanəyə çevrilmiş uzaq tarixlərin faciəli sevgiləri, "ənənəvi" ədəbiyyat maraqlarından uzaq görünən sadə insanların bəsitliyi ilə gözəl olan həyatları, insanlığın üz qarası olan qırğınlar və müharibələr, hər biri millətin taleyinə yazılan böyük sənət adamları , yüzlərlə, minlərlə bir-birindən maraqlı, süjet, görüş, ayrılıq, itki, xatirə, övlad sevgisi, Azərbaycandan görünən dünya, dünyadan görünən Azərbaycan...

Bu oncildliyin məziyyətlərini yazsan, sanballı bir cild alınar.

XX yüzilin sonu XXI yüzilin əvvəlində Azərbaycanın bütün çəkdikləri, onun bir böyük oğlunun bütün yaşantıları bu on cilddədir. Vərəqləyirsən və "Seçilmiş əsərlər"də bu qədər sevgi, səmimiyyət, ağrı, fəlsəfi düşüncə, bilgi, müdriklik, emosionallıq yükünün, bu qədər bədii və mənəvi enerjinin toplanmasına sevinirsən.

Elçin əsl bir ziyalı ömrü yaşayıb. Ötən əsrin 60-cı illərindən üzü bəri yaşadığımız həyatın elə bir ciddi hadisəsi yoxdur ki, onun özünün, sözünün, qələminin diqqətindən yayınsın; bu dövrdə dünyada baş verən elə bir dəyərli ədəbi hadisə yoxdur ki, Elçin ona münasibət bildirməsin, öz qiymətini verməsin; yaşlı, gənc nəslin elə bir uğurlu əsəri yoxdur ki, Elçin onun haqqında ayrıca məqalə yazmasın və ya fürsət tapdığı bir məqamda qələm dostlarının nailiyyətlərinə sevincini bildirməsin.

Bu dövrün mürəkkəbliyin, daban-dabana zidd olan ideoloji sistemlər, imperiyanın çöküşü, müstəqillik uğrunda mübarizə, doğma Şuşa və Qarabağın itgisiylə nəticələnən işğalçılıq müharibəsi hamısı xalq yazıçısının əsərlərində əksini tapıb; bu tarixin içindən Elçin alnı açıq çıxıb, çünki həmişə xalqın tərəfində olub, vətəndaşlıq məfkurəsindən dönməyib, mövqeyi aydın və ardıcıl olub. Bu sözlər həm yaradıcılığına, həm də ictimai siyasi fəaliyyətinə aiddir.

Elçin dinclik bilmədən çalışıb. Hekayələr, povestlər, uşaq nağılları, yanıltmac və tapmacalar, roman və pyeslər, kinopovestlər, səyahət notları, esselər, ədəbi düşüncələr, publisistik məqalələr, resenziyalar...

O həm də ciddi bir ədəbiyyatşünas alim, çağdaş ədəbiyyatımızı dünya ədəbiyyatı kontekstində (bu baxımdan Elçinlə müqayisə oluna biləcək tənqidçilərimiz azdır!) təhlil edən ədəbi tənqid ustasıdır.

Onun "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü" romanlarının hər biri bədii nəsrimizin ciddi uğurlarındandır. "Mahmud və Məryəm", şəxsən mənə görə, tarixi romanlarımız arasında xüsusi bir yer tutur. Pyesləri Milli Dram Teatrımızın səhnəsindən düşmür.

Atası İlyas Əfəndiyevdən başlamış, ötən əsrdə yaşayan, demək olar ki, bütün görkəmli ədəbiyyat və mədəniyyət xadimlərimiz, şəxsən tanıdığı, oturub-durduğu insanlar Elçinin ədəbi portretlərində son dərəcə səmimi duyğularla, unudulmaz cizgilərlə qələmə alınır.

Müsahibələrinin birində səmimiyyəti insanın ən gözəl, ən dəyərli xüsusiyyəti hesab edən xalq yazıçısının bütün əsərləri belə bir səmimiyyət işığına bürünüb.

O, Nizami adına Ədəbiyyat İnstitutu, Yazıçılar İttifaqı, "Vətən" cəmiyyəti, Nazirlər Kabineti – harda işləyibsə, milli ideallarımıza xidməti, mənəvi dəyərlərimizin qorunmasını və mədəniyyətimizin inkişafına qayğını əsas vəzifəsi sayıb.

Elçin yaradıcılıqda nə qədər iddialıdırsa, həyat tərzində bir o qədər iddiasız, gözü-könlü tox, təvazökar, münaqişələrdən uzaq, xeyirxah bir insan, əsl vətəndaşdır.

O, xoşbəxtliyi və mənəvi rahatlığı – yaradıcılıqda tapan, sözə, zəhmətə sədaqətlə bağlı olan qələm, ədəbiyyat fədaisi, qüdrətli söz ustasıdır.

Xalq yazıçısının oncildlik "Seçilmiş əsərlər"inə maraqlı bir üz qabığı tapıblar: dama-dama şagird dəftəri...

Ön sözdə qeyd edir ki, ilk romanını da belə dama-dama qalın dəftərdə yazıbmış. Orta məktəb illərindən başlayaraq on illər boyu o "dəftər" yazılır... və inanıram ki, hələ bir neçə onil də yazılacaq...

Əziz Elçin bəyə hər günü vətənə və sözə xidmətlə dolu olan uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.